Nizamişünaslıq 11, №2, 2024, səh. 103-107
https://doi.org/10.59849/3006-2403.2024.2.103

***Leyla KƏRİMOVA***
***AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzi***
***E-mail: leynanu@gmail.com***

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA ƏDALƏTLİ CƏMİYYƏT

*Açar sözlər*: Nizami, kamil insan, ədalət, dövlət, hökmdar

Nizami Gəncəvinin poemalarının hər birini diqqətlə oxuyub tədqiq etdiyimiz zaman əsərlərin ana xəttini ədalətli cəmiyyət, dövlət və dövlətçiliyin idarə edilməsi, ədalətli hökmdar prinsipini olduğunun şahidi oluruq. Bu əsərlərdə şair dövrünün ictimai problemlərini əmələ gətirən səbəbləri axtarmış və onlardan xilas olmanın yollarını tapmaq istəmişdir.

Dahi şair əsərlərində ədalətli şah və ədalətli cəmiyyət ideyası ilə bağlı münasibətini bildirməklə qalmamış, məmurların, saray əyanlarının pis əməllərini açıq şəkildə göstərmişdir. Çünki, məmurlar, saray əyanları dövlətin xalq arasında üzüdür, dövlətin əhali arasında göstəricisidir.

Şair poemalarında şahlara, hökmdarlara verdiyi nəsihətlərlə bərabər şahın adamları olan məmurları, saray əyanlarının pis üzünü açıb göstərməklə onlara da nəsihət etmişdir. Məsələn: "Sirlər xəzinəsi" poemasının "Sultan Səncər və qarı" hekayəsində dövlət məmuru olan darğa tənqid atəşinə tutulmuşdur. Darğanın özbaşınalığını, zülmünü isə xalqın içindən çıxmış bir qarının diliylə göstərmişdir. Şair bu hekayədə darğanın bu zülmünün səbəbini hökmdarda görmüşdür. Çünki, əgər hökmdarın sözünün darğanın yanında əhəmiyyəti olarsa, xalqı özü qəbul edib onlarla maraqlanarsa, bütün ixtiyarları məmurlara verməzsə, onda xalq da nə hökmdardan, nə də onun məmuru olan darğadan narazılıq etməzdi.

O yanda təbil çalıb, xərac yığanlar,
Bir yanda bir qadının üstünə şər atanlar.
Əl uzadır bu darğa, bir fikirləş, gör, kimə,
Sənin ədalətinə, mənim də ismətimə [3,110].

Şairin əsərlərində bəhs olunan azad cəmiyyət, ədalət mövzusu, hökmdar və rəiyyət mövzularını utopik şəkildə təsvir etmişdir. Bu şairin öz arzusu idi. Vətəni üçün, xalqı üçün. Şair dövründə gördüyü hadisələri, haqsızlıqları əsərləri vasitəsilə hökmdarlara bu yolla fikrini çatdırmaq istəmişdir. Nizamiyə görə güclü və müstəqil dövlətin olması üçün dövləti idarə edən hakimlərin uzaqgörən və ədalətli olması vacibdir. Bu şairin ən böyük arzusu, istəyi idi.

Yuxarıda qeyd etdiyimiz fikirlə bağlı Qızıl Arslan xəlifədən alınmış qiymətli daşlar, qızılı və gümüşlə Toğrulun dövlət xəzinəsini doldurmuş, dövlətin daxilində əcnəbi nümayəndələrini sürgün etmişdir. Atabəy Toğrula yazdığı məktubda onun rəiyyətin tərəfində, apardığı islahatların məmləkətinin əhalisi xeyrinə olduğunun şahidi oluruq .Onun Toğrula yazdığı məktubdan əsl hökmdar xüsusiyyətinə malik olduğunun şahidi oluruq. "Xalq bizə arxalanıb gecələri evində rahat yatmalıdır, amma biz yatmamalıyıq. Hökumət qanunlarını elə formaya salmaq lazımdır ki, rəiyyət əsirlik və məhkumluq hiss etməsin. Rəiyyətinə o qədər adil və mehriban olmalısan ki, ətrafında casus, xəfiyyə və ya xəbərçilər olmasın [1, 46]." Əsərin bu hissəsindən də belə nəticəyə gəlmək olar ki, Nizami Gəncəvi dövrünün hökmdarı olan Atabəy Qızıl Arslanın apardığı bütün islahatların rəiyyətin xeyrinə olmasını nəzərdə tuturdu.

Xeyirxahlığı güdmək-adillik nişanəsi,
Xalqa xidmət-kişinin ən böyük xəzinəsi!
Ev yıxdı, mülk uçurtdu, zülümkarlar nə qədər,
Tapdı dövləti yalnız xalqı incitməyənlər [3, 97].

Şeirdən də aydın olduğu kimi şair xeyirxahlığı, adillik-ədalət nişanəsi kimi görür. Şairə görə ən böyük adillik xalqa xidmət etmək, öz xalqının firavanlığı üçün çalışanlar qazana bilərlər. Burada "tapdı dövlət" ifadəsi dövlət mənasında deyil, ədaləti tapmaq mənasında işlənmişdir.

Şairə görə İnsan ədalətsiz davranarsa, xalqını incitsə-yəni ədalətsiz davranışla həyatda heç nə qazana bilməz, xəcalətdən başqa.

Çalış xəlq üçün qazan asudəlik, səadət,
Xəlqi döyən, incidən nə qazanıb? Xəcalət! [3, 97]

Nizamiyə görə hökmdar ilk əvvəl xalqı öyrənməlidir. Xalqı dərindən öyrənə bilmədiyin təqdirdə ətrafındakı olan saray adamlarının əhali üçün şaha yalan dediyi sözlərə inanar. "Dünyada padşahlığın taxtından da çürük və davamsız şey yoxdur" [1,138].

Zülm ilə tutmaq olmaz bu cahan, bu mülkü,
Mülkü ələ gətirmək yalnız insafla mümkün.
Adil olmayanların sənə nə faydası var?
İnsafsız səni yalnız tufanlara tullayan.
Ədalət müjdəsilə cahanı şad eylə sən,
İşlər gör ki, iş olsun yurdu abad eylə sən!
Ədalət təşnəsidir, inan bu gözəl diyar,
Ədl ilə iş görənlər əbədi özül tapar [3, 98].

Ölkənin müqəddəratına mane olmaq istəyənləri ölkədən uzaqlaşdırmaq lazımdır. Necə ki, təzə əkilmiş cavan ağacın yaxşı inkişaf etməsi üçün, qoca, qurumuş ağacı dibindən kəsmək lazımdırsa, elcə də dövlətin əleyhinə fikirləşən adamları dövlətin idarəsindən uzaqlaşdırmaq lazımdır. Çayların axıb gəldiyi yollar daşlardan, qumlardan təmizlənməlidir ki, torpağın dərinliyindən gələn yeni bulaqların çıxmasına mane olmasın. Dövlətin yenidən dirçəlməsinə, təzələnməsinə, hakimiyyətin yenilənməsinə mane olan qüvvələri hakim dairələrdən təcrid etmək lazımdır. Şairin əsərlərindən çıxan əsas fikir budur.

Dahi şair Nizami Gəncəvinin poemalarının hamısında ədalət mövzusu işlənmişdir. Məsələn: Nizami Gəncəvi "Xosrov və Şirin" poemasında "Xosrovun ova çıxması və oradan kəndlinin evinə getməsi" hissəsində atəşpərəst Hörmüzün ədalətini göstərmişdir. Hörmüz şahın rəiyyətin xeyrinə qoyulmuş qanunları vardır. Hətta bu qanunları sərxoş vəziyyətində olan gözünün ağı-qarası bir oğlu Xosrov pozaraq bir kəndlinin evinə girdiyinə görə oğlunu şəhzadə olmasına baxmayaraq onu öz qanunları əsasında cəzalandırmışdı. O dövr - Orta əsrlərdə hökmdarlar tərəfindən təyin edilən qanunlar feodal əyanlarına şamil edilmirdi. Əyanlar, məmurlar bu qanunlara uyğun hərəkət edilmədiyi təqdirdə cəzalandırılmırdılar. Lakin əsərin qəhrəmanı olan Hörmüzün qoyduğu bu qanunlar xalqın xeyrinə olaraq rəiyyətə zərər yetirənləri cəzalandırırdı. Şair Hörmüzün bu ədalətli hökmünü alqışlayır, bu hadisəni dövründə baş vermiş hadisələri ilə uyğunlaşdırmış və öz dövründə baş verən haqsızlıqlardan şikayətlənmişdir:

Xosrov kef çəkdiyi ev sahibinə,
Edildi Xosrovun təxti hədiyyə.
Qırdılar cənginin dırnaqlarını,
Qopardılar cənginin tel qatarını.
Doğma bir övlada əvvəl nə sayaq,
Ədalətlə cəza verilirdi, bax!
Hanı o ədalət, o insaf hanı?
Verə öz oğluna belə cəzanı.
İndi yüz yoxsulun tökülsə qanı,
Nahaq qan tökənə bir cəza hanı? [4, 60].

Nizami həm də bu fikirdədir ki, ancaq Türklərin qurduğu dövlət ədalətlə idarə olunub və ədalət prinsipləri əsasında mövcud ola bilər. XII əsr tarixi dövrə nəzər saldıqda şairin yaşadığı dövrdə mövcud olan Səlcuqilər türk dövlətini və onların atabəyi olmuş, lakin sonradan bütün Azərbaycana hakim olan Atabəylər dövlətinin mövcud olduğunu görmək olar. Şair özünün arzuladığı kimi ədalətli bir dövlət görmək arzusunu adını hallandırdığımız mövcud olan hakim dövlətlərdə görmək istəyini bildirməklə ədalətin ancaq türklərdə mövcud olduğunu bildirmişdir. Əgər bir hökmdar ədalətsiz dövləti idarə edirsə, deməli o, türk deyildir. Necə ki, "Sirlər xəzinəsi" poemasında "Qarı ilə Sultan Səncərin" hekayəsində bu mövzuya geniş formada toxunulmuşdur. Hökmdarın türk adına layiq ədalətli olmadığını şair qarının öz dili ilə bildirmişdir. Əslində bu şairin öz sözləridir.

Dağ kimi ucalmışdı bir zaman Türk dövləti,
Sarmışdı məmləkəti ədalət, şəfqəti.
Sən yıxdın o şöhrəti, batıb getdi o ad-san.
Demək,sən türk deyilsən, yağmaç bir hindusan.
Əllərinlə dağıldı şəhərlərin əsası,
Biçinçinin xırmanı, əkinçinin tarlası [3,111-112].

M.S.Ordubadinin "Qılınc və qələm" tarixi romanını oxuyarkən şairin Qızıl Arslanın dövlət haqqındakı islahatlarla bağlı verdiyi məsləhət bu fikrimizi bir daha təsdiq edir: "Hökmdarın tələsməsi lazım deyil. Böyük işlər hazırlıq və tədricilik tələb edir. Mövhumat və büdət hansı yollarla gəlmişdirsə, həmin yollarla da onu məhv etmək lazımdır. Azərbaycanlıların qəhrəmanlığını elm və mərifətlə taclandırmaq lazımdır." [1,48].

Nizami Gəncəviyə görə insanlara xas olan xüsusiyyətlər xeyir və şər xüsusiyyətləridir. Dünyada yeganə dəyəri olan şey-insanları, dünyanı ədalətlə idarə etməkdir. Əgər yer üzərində ədalət yoxdursa, o zaman zülmət olar, zülm olar. Lakin dünyanın fatehi ancaq ədalət ola bilər. Yalnız ədalət dünyanı gözəlləşdirə bilər. Necə ki şeirdə deyildiyi kimi:

Zülm ilə tutmaq olmaz bu cahanı, bu mülkü,
Mülkü ələ gətirmək yalnız insafla mümkün!
Ədalət müjdəsilə cahanı şad eylə sən,
İşlər gör ki, iş olsun, yurdu abad eylə sən!
Ədalət təşnəsidir, inan bu gözəl diyar,
Ədl ilə iş görənlər əbədi özül tapar [3, 98].

Qurani-Kərim kitabında da Allah insanlara ədalətli olmağı, yaxşılığı, insanların haqqını aralarında fərq qoymadan verməyi buyurmuş, zülmü pisləyərək zalımların aqibətləri barədə xəbərdar etmişdir. Qurani-Kərimin ən-Nisə surəsinin 135-ci ayəsində buyurulur: "Ey iman gətirənlər! (Şahidliyiniz) sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun! (Əleyhinə şahidlik edəcəyiniz şəxs) istər dövlətli, istər kasıb olsun, hər halda Allah onların hər ikisinə (sizdən) daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib büzsəniz və ya (doğru şəhadət verməkdən, yaxud ümumən şahidlikdən) boyun qaçırasınız, (bilin ki) Allah etdiyiniz işlərdən xəbərdardır" [5,18].

Ədalət məfhumu birbaşa halal və harama da aid edilir. Çünkü insanlar, hökmdarlar, hakimlər, məmurlar Allahın halal buyurduğunu özlərinin həyat qayəsi kimi qəbul etdikləri zaman onda ədalətli davranıb, dövləti Allahın buyurduğu kimi ədalətli idarə edə bilərlər. Halal və haram məfhumunu Məhəmməd Peyğəmbərin hədislərindən daha yaxşı dərk etmək olar. "Halal olan şeylər müəyyən, haram olan şeylər də bəllidir. Bu ikisinin arasında, xalqın bir çoxunun halalmı, harammı olduğunu bilmədiyi şübhəli məsələlər də vardır. Şübhəli mövzulardan çəkinənlər isə, dinini və ismətini qorumuş olur. Şübhəli şeylərdən çəkinməyənlər isə get-gedə harama dalar. Necə ki, diqqət edin! Hər padşahın girilməsini qadağan etdiyi ərazisi vardır. Unutmayın ki, Allahın qadağan ərazisi də haram qıldığı

şeylərdir. İnsan bədənində isə kiçik bir ət parçası vardır ki, əgər bu ət parçası yaxşı olsa, bütün bədən yaxşı olar. Əgər o, pozulsa, bütün bədən pozular. Bu ət parçası isə insanın qəlbidir [5, 18].”

Şairə görə “Həyat ədalətin beşiyidir”. Nə edirsənsə, bunun qarşılığını görəcəksən. “Bütün cahana bir nida gəldi: Kim başqasına pislik edirsə, əslində, özünə pislik etmişdir. Çünki təbiət zülmkarı cəzalandırır” [2, 19].

Nəticə: Nizamiyə görə ədalətli cəmiyyətin var olması üçün ilk əvvəl insanlar elə tərbiyə almalıdırlar ki, özlərini başqalarından üstün tutmasın, lovğalanmasın, bir-birilərini aldatmasınlar. Xalqını, rəiyyətini düşünən və sevən insan daim həyatını xalqının xidmətinə verməlidir. Şairə görə insanın tərbiyəli, xoşxasiyyətli, mülayim və elmli olması nəsildən nəsilə keçən irsi bir xüsusiyyət deyildir. Sonradan qazanılmış bir xüsusiyyətdir. Nizami ən böyük xoşbəxtliyi ədalətli bir cəmiyyətdə gözəl bir həyat qurub, insanlara ziyan vurmadan, ədavət bəsləmədən səmimi yaşamaqda görmüşdür.

ƏDƏBİYYAT

1. M.S.Ordubadi. Əsərləri. Səkkiz cilddə. Qılınc və Qələm. “Azərnəşr”. Bakı, 1966, s. 46, 138, 48.
2. Mail Yaqub. 525-ci qəzet. 4 avqust 2021-ci il, çərşənbə. Nizami Gəncəvinin fəlsəfi irsində Ədalət nəzəriyyəsi. Şah və ədalət. S. 19.
3. Nizami Gəncəvi Sirlər Xəzinəsi. Tərcümə edən Xəlil Rza Ulutürk. Lider Nəşriyyatı, Bakı, 2004, s. 97, 98, 111, 112. ( 264).
4. Nizami Gəncəvi.Xosrov və Şirin. Tərcümə edən Xəlil Rza Ulutürk.Lider Nəşriyyatı, Bakı, 2004, s. 60.
5. Səyyad Aran, 525-ci qəzet, 14 iyul, 2021-ci il, çərşənbə. Nizami Gəncəvinin dini-fəlsəfi görüşlərində ədalət və tolerantlıq. S. 18.

***Лейла КЕРИМОВА***

## СПРАВЕДЛИВОЕ ОБЩЕСТВО В ТВОРЧЕСТВЕ НИЗАМИ ГЯНДЖЕВИ
## *РЕЗЮМЕ*

*Ключевые слава:* идеальный, человек, справедливость, состояние, правитель

Существовало много писателей, создававших произведения о справедливости. Однако Низами Гянджеви настолько великая личность, что принципы справедливости в его произведениях, заложили основы принципов справедливости в других странах и в нашей стране с двенадцатого века до наших дней.

Основная идея творчества Низами Гянджеви - это правда и справедливость, народ и правитель, человек и общество. По мнению Низами, нравственное совершенство человека, формирование идеальной личности означает нравственное совершенство общества. Если мы хотим, чтобы в обществе установилась справедливость, необходимо, чтобы общество совершенствовалось морально. Потому что справедливое общество - это то же самое, что и идеальное общество.  Существование справедливого общества требует отсутствия социального неравенства между людьми, отсутствия агрессивных войн, качества, присущие совершенному человеку: любовь а не ненависть, мужества, а не трусость, любовь к стране и народу.

***Leyla KARIMOVA***

**A FAIR SOCIETY IN THE WORKS OF NIZAMI GANJAVI**

*SUMMARY*

*Key words:* perfect, human, justice, state, ruler

There were many writers who created works about justice. However, Nizami Ganjavi is such a great personality that the principles of justice in his works laid the foundations for the principles of justice in other countries and in our country from the twelfth century to the present day.

The main idea of Nizami Ganjavi’s work is truth and justice, people and rulers, man and society. According to Nizami, the moral perfection of a person, the formation of an ideal personality means the moral perfection of society. If we want justice to be established in society, it is necessary for society to improve morally. Because a just society is the same as an ideal society. The existence of a just society requires the absence of social inequality between people, the absence of aggressive wars, the qualities inherent in a perfect person: love and not hatred, courage, not cowardice, love for the country and people.

***Daxil oldu: 10.12.2024-cü il***